Azərbaycanda İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Ölkə Əlaqələndirmə Komissiyası (ÖƏK) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2004-cü il tarixli 17/5540-11 saylı razılığı əsasında təsis edilmişdir.

12 iyul 2011-ci il tarixində ÖƏK-in 18 saylı iclasında Komissiyanın yeni Əsasnaməsi təsdiq edilmişdir.

13 iyun 2012-ci il tarixində ÖƏK-in 22 saylı iclasında Əsasnaməyə aşağıdakı dəyişikliklər təsdiq olunmuşdur:

1. Əsasnamənin titul vərəqində və mətnində təşkilatın adı aşağıdakı redaksiyada verilsin:

   **“Azərbaycanda səhiyyə sahəsində beynəlxalq proqramlar üzrə Ölkə Əlaqələndirmə Komissiyası “**

2. Maddə 2-ə ÖƏK-in məqsədi kimi aşağıdakı cümlə əlavə edilsin:

   ***Vaksin və İmmunlaşdırma üzrə QAVİ Alyansın dəstəyi ilə həyata keçirilən layihələrin tətbiqi, monitorinqi, nəzarəti və müvafiq qərarların qəbul edilməsinə yardım etmək***

3. Maddə 4-ə ÖƏK-in əsas funksiyası kimi aşağıdakı cümlə əlavə edilsin:

   ***Vaksin və İmmunlaşdırma üzrə QAVİ Alyansın dəstəyi ilə həyata keçirilən layihələrin koordinasiyası, monitorinqi, nəzarəti və lazımi digər müvafiq qərarların qəbul olunması***

4. Maddə 20-ə əlavə bənd daxil edilsin:

   ***20.6. Nizamnamənin 17-ci maddəsinə uyğun olaraq ÖƏK-in tərkibində 4-cü Texniki İşçi Qrup “Vaksin və İmmunlaşdırma üzrə QAVİ Alyansın dəstəyi ilə həyata keçirilən layihələr” və bu texniki işçi qrupun daxilində iki “İmmunlaşdırma proqramı” və “Səhiyyə Sisteminin Gücləndirilməsi proqramı” alt qrupları fəaliyyət göstərir.***